

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 25 noyabr 2023-cü il №89 (2801) https://mod.gov.az Qiymәti 30 qəpik

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Bütün ərazilərimiz üzərində suverenliyimizi tam bərpa etdik və Azərbaycan ərazisində təcavüzkar separatizmə son qoyduq

*Noyabrın 24-də Bakıda, Heydər Əliyev Mərkəzində BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının - SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşü keçirilir.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə görüşündə iştirak edir.

Azərbaycan Prezidenti Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarını qarşılayıb.

Sonra birgə foto çəkdirilib.

Dövlətimizin başçısı Zirvə görüşündə çıxış edib.




**Prezident İlham Əliyevin çıxışı**

- Hörmətli dövlət və hökumət başçıları.

Hörmətli beynəlxalq təşkilatların nümayəndələri.

Xanımlar və cənablar.

Mən sizi səmimiyyətlə salamlayıram, qonaqlarımıza "Xoş gəlmisiniz!" deyirəm.

Bu il BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının (SPECA) 25-ci ildönümüdür. Hazırda Azərbaycan SPECA-ya sədrlik edir. İyirmi beş il ərzində ölkələrimiz arasında hərtərəfli əlaqələr uğurla inkişaf edib, ancaq SPECA-ya üzv dövlətlərin Zirvə görüşü ilk dəfə keçirilir. Zirvə görüşünün keçirilməsi ilə əlaqədar Azərbaycanın təşəbbüsünə dəstək verdikləri üçün Mərkəzi Asiya ölkələrinin rəhbərlərinə təşəkkürümü bildirirəm. Bu gün Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan bir sıra çoxtərəfli formatlarda uğurla əməkdaşlıq edir. Mənim dəvətimlə bu gün Zirvə görüşündə Gürcüstanın və Macarıstanın Baş nazirləri, Körfəz Əməkdaşlıq Şurasının Baş katibi fəxri qonaqlar qismində iştirak edirlər. Əminəm ki, bu tərkibdə keçirilən Zirvə görüşü daha geniş iqtisadi əməkdaşlıq formatına yol açacaq.

SPECA yarananda üzv ölkələr dövlət müstəqilliyinin ilk addımlarını atırdılar. Qarşımızda bir çox problemlər, çağırışlar durmuşdu. Son 25 ildə əsas çağırışlar arxada qalıb, biz dövlət suverenliyimizi möhkəmləndirmiş, beynəlxalq aləmin dəyərli üzvlərinə çevrilmiş və iqtisadi cəhətdən sürətlə inkişaf etmişik. Ölkələrimizi birləşdirən daha bir amil var, o da siyasi sabitlikdir. Sabitlik olmadan heç bir iqtisadi inkişafdan söhbət gedə bilməz. Bu gün dünyanın müxtəlif bölgələrində müharibələr, münaqişələr, qanlı toqquşmalar geniş vüsət alıb. Bizim ölkələrimizdə isə sülh, sabitlik, əmin-amanlıq hökm sürür, inkişaf, quruculuq prosesləri uğurla gedir. Bu, dövlətlərimizin və xalqlarımızın böyük nailiyyəti və uğurudur.

Dünyada uğursuz, asılı, iki və ya daha çox stulda oturmaq istəyən, bir neçə ağaya xidmət edən, özünü daha böyük dövlətlərin qarşıdurma arenasına çevirən ölkələrin sayı az deyil. Onlardan biri Azərbaycanın qonşusu Ermənistandır. Belə ölkələrə, sözün əsl mənasında, müstəqil ölkə demək olmaz. Belə ölkələrin siyasəti xalqlarının iradəsinə əsaslanmır, onların taleyi xarici sponsorların əlindədir. SPECA-ya üzv dövlətlər isə əsl müstəqil ölkələrdir, çünki müstəqil xarici və daxili siyasət aparırlar.

Bu günlərdə BMT Baş Assambleyasında SPECA-nın 25 illiyi ilə əlaqədar qəbul edilmiş qətnaməni alqışlayırıq. BMT-nin himayəsi altında SPECA Etimad Fondu təsis edilmişdir. Azərbaycan Etimad Fonduna 3,5 milyon ABŞ dolları ayıracaq.

(Ardı 2-ci səhifədə)

## “Doğu Akdeniz-2023” beynəlxalq təliminin “Yüksək Səviyyəli Müşahidəçi Günü” keçirilib





Qardaş ölkə Türkiyədə "Doğu Akdeniz-2023" beynəlxalq təliminin noyabrın 23-də "Yüksək Səviyyəli Müşahidəçi Günü" keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə Türkiyə Respublikasının Hərbi Dəniz Qüvvələrinin (HDQ) komandanı donanma admiralı Ercüment Tatlıoğlu ilə yanaşı Azərbaycan HDQ-nin, eləcə də digər dost və müttəfiq ölkələrin nümayəndələri də iştirak ediblər.

Qonaqlar təlimin növbəti epizodları üzrə tapşırıqların icrasını izləyiblər. Ssenariyə əsasən baş vermiş zəlzələ səbəbindən vətəndaşların, o cümlədən yaralıların sahildən TCG Anadolu gəmisinə təxliyesi tapşırıqları uğurla yerinə yetirilib.

Helikopterlərdən gəmiyə enən hərbi qulluqçuların Azərbaycan və Türkiyə bayraqlarını dalğalandırması böyük maraqla qarşılanıb.

Azərbaycan HDQ Dəniz Xüsusi Təyinatlılar dəstəsinin bir qrup şəxsi heyətinin də iştirak etdiyi "Doğu Akdeniz-2023" beynəlxalq təliminin gedişatı müsbət qiymətləndirilib.

## HDQ-nin Dəniz xüsusi təyinatlıları paraşüt tullanışları icra ediblər

*Hərbi Dəniz Qüvvələri (HDQ) komandanının təsdiq etdiyi döyüş hazırlığı planına əsasən HDQ-nin Dəniz xüsusi təyinatlıları paraşüt tullanışları icra ediblər.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, 600 və 1200 metr hündürlükdən çətinləşdirilmiş paraşüt tullanışları Dəniz xüsusi təyinatlıları tərəfindən uğurla yerinə yetirilib.

Bundan başqa helikopterlərdən müxtəlif üsullarla enmə tapşırıqları da icra edilib.

Keçirilən məşqlərin əsas məqsədi şəxsi heyətin döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasını təmin etmək və ekstremal şəraitlərdə döyüş tapşırıqlarının icrası üzrə praktiki vərdişlərini təkmilləşdirməkdir.

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Bütün ərazilərimiz üzərində suverenliyimizi tam bərpa etdik və Azərbaycan ərazisində təcavüzkar separatizmə son qoyduq







**(Əvvəli 1-ci səhifədə)**

SPECA həftəsi ərzində Bakıda təşkil olunan iqtisadi forum ölkələrimiz arasındakı biznes əlaqələrinin inkişafına töhfə verəcək. Bakı Ekspo Mərkəzində təşkil edilmiş sərgi ölkələrimizdə gedən inkişafı əyani şəkildə göstərir.

Azərbaycanı Mərkəzi Asiya ölkələri ilə çoxəsrlik tarixi və mədəni əlaqələr bağlayır. Azərbaycan və Mərkəzi Asiya strateji əhəmiyyəti artmaqda olan vahid tarixi-mədəni və geosiyasi məkandır. Sentyabr ayında mən Düşənbədə keçirilmiş Mərkəzi Asiya Dövlət Başçılarının Zirvə görüşünə ilk dəfə fəxri qonaq kimi dəvət olunmuşam. Dəvətə görə bir daha təşəkkür edirəm. Hazırkı Zirvə görüşünü Düşənbə görüşünün məntiqi davamı kimi qiymətləndirirəm.

Azərbaycanın güclü iqtisadiyyatı müstəqil xarici siyasət kursu həyata keçirməyə imkan yaradır. Son 20 il ərzində Azərbaycanın ümumi daxili məhsulu 4 dəfə artıb. Büdcə gəlirləri 30 dəfədən, xarici ticarət dövriyyəsi isə 10 dəfədən çox artmışdır.

Azərbaycanın birbaşa xarici borcu hazırda ümumi daxili məhsulun təxminən 10 faizini təşkil edir. Valyuta ehtiyatları birbaşa xarici dövlət borcumuzu 10 dəfə üstələyir, yoxsulluq səviyyəsi təxminən 50 faizdən 5,5 faizə düşüb.

Biz ölkəmizdə əlverişli investisiya mühiti yarada bilmişik. Son 20 ildə Azərbaycan iqtisadiyyatına 310 milyard ABŞ dolları həcmində sərmayə qoyulub ki, bunun da 200 milyard ABŞ dollarına yaxını qeyri-enerji sektorunun payına düşür.

Son illərdə Azərbaycan özünün nəqliyyat infrastrukturuna milyardlarla ABŞ dolları həcmində sərmayə qoyub, Avrasiyanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzərində yerləşən nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib.

Hörmətli həmkarlar.

Müstəqilliyimizin ilk illərində ölkəmizin beynəlxalq səviyyədə tanınan ərazilərinin təxminən 20 faizi Ermənistan tərəfindən işğal edilmişdi. Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz dədə-baba yurdlarından qovulmuşdur.

Otuz ilə yaxın aparılan danışıqlar heç bir nəticə verməmişdir. Çünki Ermənistanın məqsədi işğalı qoruyub saxlamaq idi. 2019-cu ildə Ermənistanın baş nazirinin o vaxt işğal altında olan Xankəndi şəhərində "Qarabağ Ermənistandır və nöqtə" açıqlaması danışıqlar prosesini tamamilə məhv etdi.

2020-ci ilin noyabr ayında Azərbaycan xalqı öz tarixinin ən parlaq Qələbəsinə imza atdı. Azərbaycan 44 günlük Vətən müharibəsində Ermənistanı məğlub etdi və işğala son qoydu. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il kağız üzərində qalmış dörd qətnaməsinin icrasını özümüz təmin etdik.

Təəssüf ki, Ermənistan bundan sonra da öz öhdəliklərini yerinə yetirmədi. Azərbaycanın suveren ərazilərində Ermənistan silahlı qüvvələrinin 15 minə yaxın hərbi kontingenti qalmaqda idi. Onlar tərəfindən törədilmiş hərbi təxribatlar nəticəsində hərbçilərimiz həlak olmuşlar.

Buna cavab olaraq və "boz zona"ya son qoyulması məqsədilə bu il sentyabrın 19-20-də biz Qarabağda antiterror tədbirləri keçirdik. Cəmi bir gün ərzində 1992-ci ildə xalqımıza qarşı soyqırımının törədildiyi Xocalı şəhəri də daxil olmaqla, bütün ərazilərimiz üzərində suverenliyimizi tam bərpa etdik və Azərbaycan ərazisində təcavüzkar separatizmə son qoyduq. Bu tarixi Qələbə münasibətilə Azərbaycanı təbrik edən bütün ölkələrə təşəkkürümü bildirirəm.

Hazırda işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir. Biz sıfırdan yeni şəhərlər və kəndlər inşa edirik. İlkin mərhələdə 100 yaşayış məntəqəsinin, o cümlədən 9 şəhər və 8 qəsəbənin bərpa edilməsi nəzərdə tutulur. Keçmiş məcburi köçkünlər "Böyük Qayıdış" Proqramı çərçivəsində öz dədə-baba yurdlarına qayıdırlar. 2026-cı ilin sonuna qədər 140 min keçmiş məcburi köçkün öz doğma evlərinə qayıdacaq.

Bu ilin avqust ayında Füzuli şəhərində Özbəkistanın hədiyyəsi olan 960 şagird yerlik Mirzə Uluqbəy adına məktəbin açılışı oldu. Qazaxıstanın hədiyyəsi - Kurmanqazı adına yaradıcılıq mərkəzi hazırda Füzulidə inşa edilir və gələn il açılacaq. Bu qardaşlıq dəstəyinə görə Şavkat Miromonoviç Mirziyoyevə və Kasım-Jomart Kemeleviç Tokayevə bir daha təşəkkürümü bildirirəm.

Çıxışımın sonunda dövlət və hökumət başçılarına dəvətimi qəbul edib Zirvə görüşündə iştirak etdiklərinə görə bir daha təşəkkür edir və Zirvə görüşünün əlaqələrimizə yeni təkan verəcəyinə əminliyimi bildirirəm.

* * *

Sonra digər dövlət və hökumət başçıları çıxış ediblər.

**AZƏRTAC-ın materialları əsasında**

---

*Gənc zabitlərimiz*

# Eyni cəbhədə döyüşmüş qardaşlar

Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında başlayan əks-hücum əməliyyatı İkinci Qarabağ müharibəsinə yol açdı. Zəfərin qazanılmasında rəşadətli Azərbaycan Ordusunun vətənpərvər, peşəkar zabit və əsgərləri misilsiz igidlik, fədakarlıq nümunələri göstərdilər. Minlərlə Vətən oğlu ölkəmizin ərazi bütövlüyü naminə silaha sarılıb düşmən üzərinə əks hücuma keçdi. 30 ilə yaxın müddətdə erməni işğalına məruz qalan torpaqlarımız, nəhayət, qəhrəman Azərbaycan oğullarının sayəsində azad edildi.

Belə mərd, qorxmaz oğullardan biri də "N" hərbi hissəsində xidmət edən baş leytenant İbrahim Nəbiyevdir. İbrahim əslən Tovuz rayonunun Şıxheybət kəndindəndir. O, bu kənddə doğulub boya-başa çatıb. Valideynləri kənd həyatında təsərrüfatla, əkinbiçinlə məşğul olub, zəhmətkeş bir ailədə iki oğul övladı böyüdüblər. Tovuz rayonu Ermənistanla sərhəddə yerləşdiyindən ermənilər illərlə bu istiqamətdə də təxribatlar törədiblər. İbrahim də, qardaşı Cilingir də kiçik yaşlarından düşmənin törətdiyi təxribatların şahidi olublar, kənd camaatının, valideynlərinin bu mövzuda danışıqlarını maraqla dinləyiblər. Yaşadıqları rayon döyüş bölgəsi olduğundan burada həmişə hərbçiləri, zirehli texnikaları canlı görüblər. Belə bir mühitdə böyüyən İbrahim gələcəkdə hərb peşəsini seçəcəyini əvvəlcədən valideynlərinə bildirib. Onlar bu arzunun gerçəkləşməsi üçün valideynlik borcunu yerinə yetirməyə söz verirlər. Orta məktəbi əla qiymətlərlə başa vuran İbrahim sənədlərini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) təqdim edir. O, 2014-cü ildə yüksək göstəricilərlə bu ali hərbi təhsil ocağına qəbul olur. 2018-ci ildə artilleriya ixtisası üzrə oranı bitirir. Gənc zabit o vaxt cəbhə xəttində yerləşən artilleriya hərbi hissəsində xidmətə başlayır. İbrahim keçirilən təlimlərdə döyüş bacarıqlarını və peşəkarlığını daima artırır. Komandanlığın rəğbətini qazanır. Nəzəri biliklərini təcrübədə tətbiq etməyi də mükəmməl öyrənir.



Baş leytenant İbrahim Nəbiyevlə söhbətimizdən: "Döyüş bölgəsinə yaxın ərazidə yaşayırdıq. Müharibə, döyüş, silah səsləri, yaralı, şəhid, hərbi formalı insanlar. Bütün bu gördüklərim məni narahat edirdi. Qərara aldım ki, böyüyəndə hərbçi olum. Valideynlərim də mənim arzumun həyata keçməsinə mane olmadılar. Əksinə, onların mənə böyük dəstəyi oldu. Məndən sonra böyük qardaşım Cilingir Nəbiyev də hərb sənətini seçdi. O, 2017-ci ildə "Gizir hazırlığı kursu"nu başa vurub, Azərbaycan Ordusu sıralarında xidmətə başladı. "N" hərbi hissəsində tank komandiri idi. Vətən müharibəsi başlayanda hərbi hissənin tank heyətləri döyüşlərin ən qaynar nöqtələrinə göndərilir. Hər ikimiz demək olar ki, eyni istiqamətdə döyüşürdük. O, tank heyətində, mən isə artilleriya bölmələrində. Bölmələrimiz Zəngilan, Cəbrayıl, Qubadlı istiqamətlərində uğurlu döyüş əməliyyatları həyata keçirirdi. Oktyabrın 28-də Cilingirin Xocavənd uğrunda gedən döyüşlərin ən gərgin anında ağır yaralanması və sonra şəhid olması xəbərini aldım. Çox ağrılı günlər idi... Qardaşım Cilingir evli idi. Bir yaşında oğlu bizə yadigar qaldı. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə döyüş tapşırığını uğurla yerinə yetirdiyinə görə müxtəlif medallara layiq görülüb".

27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başladığı ilk gündən İbrahim Füzuli, Xocavənd, Cəbrayıl istiqamətlərində döyüşdü. Düşmənin artilleriya qurğularının dəqiq atəşlə sıradan çıxarılmasında fədakarlıq göstərdi.

Qardaşların döyüşdüyü ərazilər düşməndən bir-bir azad olunurdu. Cilingirin yarıda qırılan ömrü İbrahimi sarsıtsa da, düşmənlə mübarizəsini sonadək davam etdirdi.

Gənc zabit "Qisas" əməliyyatında da batareya komandiri kimi düşmənin atəş nöqtələrinin qətiyyətlə susdurulmasında xüsusilə fərqlənib.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə baş leytenant Nəbiyev İbrahim Azad oğlu "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medallarına layiq görülüb. Baş leytenant İbrahim Nəbiyev hərbi hissədə yüksək peşəkarlığı ilə seçilən zabitlərdəndir.

Qardaşı Cilingirin uğrunda şəhid olduğu torpaqlar bu gün həyatın yeni məcrasına qədəm qoyub. İşğaldan azad olunmuş rayonlarımızda bərpa-quruculuq işləri başlayıb. Yenidən dirçələn o torpaqlarda xoşbəxt gələcəyə doğru inamlı addımlar atılır.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Müdafiə nazirinin müavinləri Gürcüstana işgüzar səfər ediblər





*Azərbaycan Respublikasının müdafiə nazirinin müavinləri Baş direktor cənab Aqil Qurbanov və Hərbi Hava Qüvvələrinin Komandanı general-leytenant Ramiz Tahirov Gürcüstana işgüzar səfər ediblər.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Tbilisidəki Heydər Əliyev parkına gələn müdafiə nazirinin müavinləri burada Ulu Öndərin abidəsini ziyarət edib, önünə əklil qoyaraq xatirəsini hörmət və ehtiramla anıblar.

Tbilisinin mərkəzindəki Qəhrəmanlar meydanı ziyarət edilib, Gürcüstanın ərazi bütövlüyü uğrunda həlak olanların abidəsi önünə əklil qoyulub.

Səfər çərçivəsində Gürcüstan Respublikası müdafiə nazirinin müavini cənab Giorgi Xaindrava və Müdafiə Qüvvələri Komandanı general-mayor Giorgi Matiaşvili ilə görüş keçirilib.

Müdafiə Nazirliyində keçirilən görüşdə hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlığın daha da genişləndirilməsi və qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilib.

Görüşün sonunda qarşılıqlı hədiyyələr təqdim edilib.

* * *

Azərbaycan Respublikasının müdafiə nazirinin müavinləri Baş direktor cənab Aqil Qurbanov və Hərbi Hava Qüvvələrinin Komandanı general-leytenant Ramiz Tahirovun Gürcüstanda işgüzar səfəri çərçivəsində Müdafiə Nazirliyinin rəhbər heyəti Tbilisi şəhərində yerləşən "Delta" Dövlət Hərbi Elmi-Texniki Mərkəzini ziyarət ediblər.

Mərkəzdə keçirilən görüşdə hərbi-texniki əməkdaşlıq sahəsində qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.



## HHQ-də buraxılış mərasimi keçirilib



Cari ilin hazırlıq planına uyğun olaraq, Hərbi Hava Qüvvələrinin (HHQ) Təlim və Tədris Mərkəzində "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"nun buraxılış mərasimi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Mərasimdə çıxış edənlər hərbi qulluqçuların bilik və bacarıqlarının təkmilləşdirilməsində bu cür kursların keçirilməsinin əhəmiyyətindən danışıb, kursu bitirənlərə gələcək xidmətlərində uğurlar arzulayıblar.

Sonra kursu müvəffəqiyyətlə bitirənlərə sertifikatlar təqdim olunub.

Sonda şəxsi heyətin tribuna önündən təntənəli keçidi olub, xatirə şəkli çəkdirilib.



*Nümunəvi xidmət*

## Vətənə xidmətdən qürurluyam

*Vətən müharibəsinə qədər hər bir əsgərin arzusu işğal altında olan torpaqlarımızın azad olunmasında düşmənə qarşı döyüş əməliyyatlarında iştirak etmək olub. Ulu Öndər Heydər Əliyev uzaqgörənliklə demişdi: "Qoy hər bir azərbaycanlı gənc yaxşı bilsin ki, Vətəni qorumaq, dar gündə torpaqlarımızın keşiyində dayanmaq onun ən müqəddəs vəzifəsidir".*

Bu müqəddəs vəzifəni fədakarlıqla yerinə yetirən hərbi qulluqçularımız onlara göstərilən böyük etimadı 30 ilə yaxın davam edən işğala son qoyaraq doğrultdular. Vətən müharibəsi bir daha göstərdi ki, hərbi qulluqçularımız Ulu Öndərin ideaya və kəlamlarına daim sadiqdirlər.

Belə vətənpərvər gənclərdən biri də Vətən müharibəsi iştirakçısı Firuz Rzayevdir. O da həmyaşıdları kimi orta məktəb illərində qədim tariximizə, incəsənətimizə böyük maraq göstərib, hərbi hazırlıq dərslərində fəal iştirak edib. Yeniyetmə və gənclik çağlarında işğal altında qalmış torpaqlarımızın taleyi bir gənc kimi onu da həmişə düşündürüb. Vətən uğrunda şəhid olan qəhrəman oğulların anım günlərində Firuz onların davamçısı kimi xidmət edəcəyinə söz verib. Ali təhsil almaq istəyinə qovuşmasa da, ruhdan düşməyib. Öncə vətəndaşlıq borcunu yerinə yetirmək üçün hərbi xidmətə yollanıb.



Firuz Rzayev doğmalarına, yaxınlarına Vətənə sədaqətlə xidmət edəcəyinə söz verib: "Vətən torpaqları öz nicatını mərd, dözümlü və polad iradəli oğullarından gözləyir. Vətən torpaqlarını işğaldan azad etmək üçün hər bir kəs müqəddəs borcunu şərəflə yerinə yetirməlidir". Belə də oldu. Firuz ilk günlərdən ordu həyatında qarşılaşdığı yeniliklərə alışmağa, qaydaqanunlara riayət etməyə başladı. Artilleriya hərbi hissəsində xidmət edən Firuz təcrübəli, peşəkar zabitlərdən hərb sənətinin sirlərini mənimsədi. Təlim və məşğələlərdə fəal iştirak etdi. Fəxri fərmanlara layiq görüldü. 2015-ci ildə hərbi xidmətdən tərxis olunsa da, yenidən taleyini ordu həyatı ilə bağlamaq qərarına gəldi. Silahdaşları kimi, o da Vətən torpaqlarını işğalçılardan azad edəcək qəhrəmanların sıralarında olmaq istəyində idi. Buna görə də müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət etmək qərarına gəldi. Ailənin tək oğlu övladı olsa da, ata-anası ona xeyir-dua verdi. Müvafiq yoxlamalardan keçərək "N" hərbi hissəsində xidmətə başladı. Təlimlərdə, məşğələlərdə bilik və bacarığını, təcrübəsini artırdı.

27 sentyabr 2020-ci ildə Firuzun xidmət etdiyi hərbi hissə də döyüşlərə cəlb olundu.

Firuzun döyüş yolu Cəbrayıldan başladı. Silahdaşları ilə birgə döyüşlərdə düşmənə sarsıdıcı zərbələr vurdular. Qarşıya qoyulan döyüş tapşırıqları müvəffəqiyyətlə icra edildi. Qubadlının, Laçının düşməndən azad olunmasında da fəal iştirak etdi. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən Firuz Rzayev "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medallarına layiq görüldü.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# Sumqayıtda keçirilən tədbirdə son 20 ildə ölkəmizdə həyata keçirilmiş hərtərəfli köklü islahatlardan danışılıb



Hərbi Prokurorluq Ulu Öndərin 100 illik yubileyi ilə bağlı silsilə tədbirləri davam etdirir.

Hərbi Prokurorluqdan AZƏRTAC-a verilən məlumata görə, Sumqayıt şəhərində şəhər rəhbərliyi, ictimaiyyət nümayəndələrinin, o cümlədən şəhid ailələri və yaralıların, eləcə də yüksəkrütbəli hərbi qulluqçuların iştirakı ilə keçirilən tədbirdən öncə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin abidəsinin önünə gül dəstələri düzülərək tarixi şəxsiyyətin ruhuna ehtiram ifadə olunub.

Tədbir Ulu Öndər Heydər Əliyevin və ərazi bütövlüyümüz, müstəqilliyimiz və suverenliyimiz uğrunda canından keçən qəhrəmanların əziz xatirələrinin bir dəqiqəlik sükutla yad edilməsi, Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Mərasimdə çıxış edən Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev, Sumqayıt şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, Vətən Müharibəsi Qəhrəmanı general-mayor Kənan Seyidov və digərləri müstəqillik yolumuzu və firavan istiqbalımızı nurlandıran, xalqını zamanın sərt sınaqlarından yüksək məharətlə çıxaran tarixi şəxsiyyət Heydər Əliyevin şərəfli və mənalı ömründən, çoxşaxəli və zəngin fəaliyyətindən, dövlətimizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

Çıxış edənlər xalqımızın böyük oğlu Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il ərzində ölkəmizdə görülmüş misilsiz işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə əldə olunmuş



müstəsna uğurlardan, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşmasından, bu uğurların əldə olunmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dəstəyindən və xalqın həmrəyliyindən danışıblar.

Tədbirdə, həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılmış tarixi Qələbə və uğurlu antiterror tədbirləri xüsusi vurğulanmaqla, həmin dövrlərdə Baş Prokurorluğun, həmçinin Hərbi Prokurorluğun Silahlı Qüvvələrlə, o cümlədən aidiyyəti rayonların rəhbərlikləri ilə qarşılıqlı səmərəli fəaliyyətindən bəhs edilib, iftixar dolu günlərin unudulmaz təəssüratları bölüşülüb.

Tədbirdən sonra şəhid ailələri və döyüşlərdə yaralananlarla fikir mübadiləsi aparılıb.





# Əlahiddə Ümumqoşun Ordunun ön xətt bölmələri qış mövsümünə tam hazırdır





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı ilə Azərbaycan Ordusunda döyüş növbətçiliyi aparan bölmələrin hərtərəfli təminatı və sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı həyata keçirilən tədbirlər davam etdirilir. Qarşıdan gələn soyuq qış aylarında da gecə və gündüz fasiləsiz xidmət aparan şəxsi heyətin döyüş qabiliyyətinin daha da artırılması, eləcə də döyüşə hazır olma vəziyyətinin yüksək səviyyədə saxlanılması üçün bütün zəruri tədbirlər həyata keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, qış mövsümündə çətin dağlıq şəraitdə, dəniz səviyyəsindən 3000 metrdən çox yüksəklikdə döyüş növbətçiliyi aparan şəxsi heyətin uğurla xidmət etməsi üçün yüksək məişət şəraiti yaradılıb. Yataqxana, yeməkxana, əşya, ərzaq anbarları və digər binalarda yaradılan müasir şərait xidmətin təhlükəsiz və rahat şəkildə aparılmasına zəmin yaradır. Ərazinin relyefinə və iqlim şəraitinə uyğun inşa olunan binalar keyfiyyətli mebel dəstləri və digər lazımi avadanlıqlarla, müxtəlif növ dayanıqlı rabitə, daimi işıq və istilik sistemi ilə təchiz edilib.

Ön xətt bölmələrimiz qışa hazırlıq tədbirləri çərçivəsində isti geyim, yanacaq, içməli su, ərzaq, eləcə də digər zəruri ehtiyatlarla tam təmin edilib. Mövqelərarası elektrik xətti yenisi ilə əvəz olunub, sənaye işığı ilə yanaşı, alternativ və bərpaolunan enerji mənbələrindən də istifadə olunması üçün günəş panelləri quraşdırılıb. Əsas və ehtiyat səngərlər, mövqelər, müşahidə və dayaq məntəqələri təkmilləşdirilib, mövqelər beton sığınacaqlarla təmin olunaraq müdafiənin dayanıqlılığı artırılıb. Dayanıqlı mühəndis-istehkam qurğuları və şəxsi heyətin mənəvi-psixoloji vəziyyəti, peşəkarlığı mövqelərin etibarlı müdafiəsinə təminat verir.

Bölmələrdə əsgərlərin asudə vaxtının səmərəli keçirilməsi üçün də lazımi şərait yaradılıb, ordumuzun keçdiyi tarixi inkişaf yolunu əks etdirən kitablar, qəzet və jurnallar əsgərlərin istifadəsinə verilib. Ən ucqar zirvələrdə belə şəxsi heyətin ölkədə və dünyada baş verən ictimai-siyasi hadisələr barədə məlumat alması üçün televizorlar quraşdırılıb.

Mürəkkəb dağlıq şəraitdə yerləşən bölmələrdə döyüş hazırlığı planına əsasən təcrübəli zabitlər tərəfindən dərs və məşğələlər keçirilir. Bu da döyüş hazırlığı ilə bərabər, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının da yüksəldilməsində əsas rol oynayır.

Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrində və müdafiə mövqelərində xidmət aparan şəxsi heyətin sağlamlığı vacib amil olduğundan xəstəxana və tibb məntəqələri bütün tibbi ləvazimatlarla təmin edilib və hərbi qulluqçuların gigiyena qaydalarına düzgün əməl etmələri üçün profilaktik tədbirlər görülür. Bütün bunlar da soyuq havalarda virus infeksiyalarının və yoluxucu xəstəliklərin tez bir zamanda qarşısının alınmasına şərait yaradır.

Vətən torpaqlarını qoruyan əsgərlərimizin nümunəvi xidməti üçün dövlətimiz tərəfindən hərtərəfli şərait yaradılıb. Qəhrəmanlıq və mübarizlik ifadəsini özündə təcəssüm etdirən, torpaqlarımızı işğaldan azad etmək kimi ən şərəfli missiyanı uğurla tamamlayan Azərbaycan əsgəri xidmətinin nə qədər məsuliyyətli və qürurverici olduğunu dərindən dərk edir.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə doğma torpaqlarımızı azad edən Azərbaycan əsgəri daim dövlət-xalq-ordu birliyindən güc alaraq Vətən torpağını şərəflə qorumaq və bu müqəddəs vəzifənin öhdəsindən layiqincə gəlmək əzmindədir.









# "Tarixi qələbə - Zəfər Günü"

Xalqımızın tarixində ağrılı-acılı günlər, aylar, illər də olub, qürurverici və sevincli anlar da. 2020-ci ilin 27 sentyabrı yaddaşlarda böyük Qələbəyə, Zəfərə aparan yolun başlanğıcı kimi tarixləşdi. 44 gün davam edən haqq savaşımızda Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin sərkərdəliyi ilə rəşadətli Azərbaycan Ordusu möhtəşəm Qələbə qazandı. 8 noyabr tarixə Zəfər Günü kimi yazıldı.

Vətən müharibəsində qazanılan tarixi Zəfər dövlətçilik tariximizin, indiki və gələcək nəsillərin hər zaman fəxr edəcəyi qəhrəmanlıq salnaməsidir.

Bülbülə qəsəbəsindəki Nəriman Həmidov adına 208 nömrəli tam orta məktəbdə "Tarixi qələbə - Zəfər Günü" adlı "dəyirmi masa" keçirildi. "Dəyirmi masa"da məktəbin rəhbərliyi, müəllim və şagirdləri iştirak etdilər.



Məktəbin tərbiyə işləri üzrə direktor müavini Ruzilə Möhbalıyeva və tarix müəllimi Şəms Həşimovanın təşkil etdiyi bu tədbirdə, öncə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Ruzilə Möhbalıyeva tədbiri açaraq bildirdi ki, əlamətdar günlər qürurla, həsrətlə gözlənilir. Torpaqlarımızın işğaldan azad ediləcəyi gün belə gözlənilib. 8 Noyabr - Zəfər Günü Vətənimiz Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin, gücünün və qüdrətinin rəmzi kimi tarixləşdi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev xalqımıza hər müraciətində torpaqlarımızın işğaldan tezliklə azad ediləcəyini, üçrəngli bayrağımızın bu ərazilərdə dalğalanacağını böyük inamla, qətiyyətlə bildirirdi. Dövlətimizin başçısı çıxışlarında dəfələrlə qeyd etmişdi ki, "Biz başqa ölkələrin torpağına iddiaçı deyilik. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Ancaq biz öz torpağımızda ikinci qondarma erməni dövlətinin yaradılmasına heç vaxt icazə verməyəcəyik". İnanırdıq... 27 sentyabrda əks-hücumun ilk həmləsindən rəşadətli ordumuzun kəndlərimizi azad etməyə başlaması bu inamı əminliyə çevirdi. Xalqımız o günlərdə həmrəylik nümayiş etdirərək, sözün həqiqi mənasında, yumruq kimi birləşdi. Vətən müharibəsində ordumuz gücünü göstərərək Ermənistanın işğalçılıq siyasətinə son qoydu. Dövlət başçımızın uzaqgörən siyasəti, sərkərdəliyi, qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti, xalqımızın birliyi Azərbaycanın şanlı qələbəsini təmin etdi.

Atası Birinci Qarabağ müharibəsi, qardaşı Vətən müharibəsi iştirakçısı, yaxınları bu yolda şəhid olan Ruzilə müəllim qeyd etdi ki, İkinci Qarabağ müharibəsinin döyüş taktikası dünya hərb tarixində yenilik hesab olunur. Azərbaycan Ordusunun Şuşa uğrundakı döyüşlərdə sıldırım qayaları dırmaşaraq düşməni yalın əllə, yüngül atıcı silahlarla məğlub etməsi dünyanın ən məşhur hərbi institutları, ABŞ, Rusiya, Çin və digər dövlətləri tərəfindən araşdırılmaqla geniş şəkildə öyrənilməkdədir.

Tarix müəllimləri Mahir Heydərov və Şəms Həşimova vurğuladılar ki, 2020-ci il noyabrın 8-də Şuşanın azad edilməsi Zəfərin tacı oldu. Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə rəşadətli Azərbaycan Ordusu 30 ilə yaxın həsrəti 44 gündə bitirdi. İllərlə xalqımız Vətən həsrətini, sevgisini ürəyində daşıdı, dövlət başçısına inandı və qələbə qazandı. Ali Baş Komandan çıxışlarında "Biz Qarabağımıza qayıdacağıq, Qarabağ tarixi Azərbaycan torpağıdır", - deyirdi. Vətən müharibəsində müzəffər sərkərdə Ulu Öndər Heydər Əliyevə və xalqına verdiyi sözləri tutdu. "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur", - deyən Ulu Öndərin arzusunu reallaşdırdı.

İşğal müddətində ermənilərin dağıtdığı, viran qoyduğu kəndlərimiz, şəhərlərimiz ən gerçək şahidlərdir. Bizə qürur yaşadan Zəfər gününü böyük sevinc, ruh yüksəkliyi ilə qeyd edirik.

**Murad Rüstəmli:**
- 27 sentyabr 2020-ci il. Bu tarix xalqımızı illərdir həsrətində olduğu şanlı Zəfərə aparan yolun başlanğıcı oldu. Vətən uğrunda haqq savaşımız həmin gün başladı. 44 günlük Vətən müharibəsi xalqımızın parlaq qələbəsi ilə başa çatdı. Uzun illər düşmən işğalında qalmış əzəli və əbədi torpaqlarımız işğaldan azad edildi. Üç ildir xalqımız bu şanlı Zəfəri böyük ruh yüksəkliyi və sevinclə qeyd edir.

**Günay Atakişiyeva:**
- Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin əmri ilə rəşadətli Azərbaycan Ordusunun cəbhə boyunca əks-hücum əməliyyatında qazandığı uğurlar, torpaqlarımızın düşmən işğalından azad edilməsi Silahlı Qüvvələrimizin, dövlətimizin gücünü, qüdrətini bir daha nümayiş etdirdi. Bu döyüşlər Azərbaycan əsgərinin döyüş və mənəvi-psixoloji hazırlığını, vətənpərvərliyini, yüksək qələbə əzmini, milli birliyimizi, həmrəyliyimizi, Azərbaycanın heç vaxt işğalla barışmayacağını, nəyin bahasına olursa-olsun, ərazi bütövlüyünü bərpa etmək əzmində olduğunu bir daha təsdiq etdi.

**Rüqəyya Novruzova:**
- Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin sərkərdəliyi ilə qüdrətli Azərbaycan Ordusu məğlubedilməz erməni ordusu mifini yerlə-yeksan etdi. Qazanılan bu Qələbəni xalqımız müqayisəolunmaz sevinclə qarşıladı. O günü ömrümün sonuna kimi unutmayacam. İndi xalqımız qalib xalq, ordumuz qalib ordu, dövlətimiz qalib dövlətdir.

**Rəfayil Dərdayılov:**
- Dünya hərb tarixində heyrət doğuran Şuşa əməliyyatı tarixdə əbədi qalacaq. Şuşa təbii istehkam olduğundan şəhərə tanklarla, yaxud digər ağır silahlarla girmək mümkün deyildi. Şəhərdəki düşmən qüvvələri hava zərbələri ilə, top atəşləri ilə məhv edilə bilərdi. Amma onda şəhərdə böyük dağıntılar olardı. Komandanlıq buna görə alternativ variant kimi əlbəyaxa döyüş taktikası seçdi. Qəhrəman hərbi qulluqçularımız yüngül silahlarla qalın meşələrdən, dərin dərələrdən keçərək, qayalar, dağlar aşaraq düşməni üzbəüz döyüşdə məğlub etdilər.

**Lalə Zülfüqarlı:**
- Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin bir kəlamını xatırlayıram: "Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, Vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir". Vətən müharibəsində biz bu sevginin nəticəsini gördük.

**Xalidə Hüseynova:**
- Döyüşlərdə Azərbaycan Ordusuna məğlub olan düşmən cəbhə xəttindən, eləcə də sərhəd bölgələrindən uzaqda yerləşən yaşayış məntəqələrini və mülki əhalini hədəfə alan təxribatları davam etdirirdi. Vətən müharibəsində düşmən Gəncəni, Bərdəni, Tərtəri, Goranboyu vurdu. Azərbaycan hərbçisi mülki əhalinin yaşadığı əraziyə bir güllə belə atmadı. Bu, dövlətimizin müharibə qanunlarına əməl etdiyinin göstəricisi idi. Götürülən əsirlərlə də necə davrandığımızı da hamı gözəl bilir. Üçtərəfli Bəyanat imzalandıqdan sonra erməni hərbçilərin 1700 cəsədi qaytarıldı. O cəsədlərin üzərində hansısa zorakılıq əlaməti yox idi, əsirlər işgəncəyə məruz qalmamışdılar. Ancaq biz gənc nəsil istər tarixən, istərsə də Birinci Qarabağ müharibəsi zamanı azərbaycanlılara qarşı göstərilənlərdən də məlumatlıyıq.

**Rəvan Dəmiray:**
- Vətən müharibəsində Azərbaycanın qazandığı tarixi Zəfərin məntiqi nəticəsi kimi bu Zəfəri rəsmiləşdirən 2020-ci ilin 10 noyabr tarixli üçtərəfli Bəyanat imzalandı. Bu, Ermənistanın məğlubiyyəti idi. Üçtərəfli Bəyanat uzun illər davam edən münaqişəyə son qoydu və Bəyanata uyğun olaraq, münaqişənin hərbi mərhələsi başa çatdı.

**Fatimə Ələkbərli:**
- 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında keçirilən parad milli iradənin, milli ruhun, milli ləyaqətin Zəfəri idi. Qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın da iştirak etdiyi bu parad əsl qalibiyyət yürüşünə çevrildi. Prezident İlham Əliyev paraddakı çıxışında da bildirdi: "Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir".

**İsmayıl Səlimzadə:**
- Vətən müharibəsi başa çatdıqdan dərhal sonra Azərbaycan işğaldan azad olunmuş ərazilərimizdə genişmiqyaslı bərpa-quruculuq işlərinə başladı.

Türk Dövlətləri Təşkilatının "Türk Əsri" adı ilə Astanada keçirilən 10-cu yubiley Zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çıxışında Böyük Qayıdış Proqramının icra olunduğunu vurğulayaraq qeyd etdi: "Artıq keçmiş məcburi köçkünlər - bu torpaqların əsl sahibləri Laçın və Füzuli şəhərlərinə və üç kəndə qayıdıb. 2026-cı ilin sonunadək Qarabağa və Şərqi Zəngəzura 140 mindən artıq insanın geri dönməsi nəzərdə tutulur".

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

## Metyu Brayza: Artıq Azərbaycanın və Ermənistanın vasitəçilərə ehtiyacı yoxdur

Azərbaycan və Ermənistanın artıq vasitəçilərə ehtiyacı yoxdur.

Bu sözləri AZƏRTAC-a açıqlamasında ABŞ-ın Azərbaycandakı sabiq səfiri, ATƏT-in Minsk Qrupunun keçmiş həmsədri, beynəlxalq ekspert Metyu Brayza deyib.

Hər iki ölkənin 30 ilə yaxın müddətdə vasitəçilik prosesində iştirak etdiklərini bildirən ekspert vurğulayıb: "İki ölkə elə bir səviyyəyə gəlib çatıb ki, liderlər artıq sülh istədiklərini və 5 baza prinsipində, o cümlədən ərazi bütövlüyünün qarşılıqlı olaraq tanınması barədə razılığa gəldiklərini bəyan ediblər. Bu prosesə yeganə maneə separatçı rejim və Ermənistanın qanunsuz silahlı birləşmələrinin Qarabağda mövcudluğu idi. Bu problem də artıq aradan qaldırılıb və iki ölkə liderinin sülh müqaviləsi barədə razılığa gəlməsinə heç bir maneə yoxdur".

M.Brayza hesab edir ki, sülh müqaviləsinin tezliklə imzalanması hər zamankından daha realdır. "Mən son bir neçə aya qədər heç zaman sülh müqaviləsi barədə razılığın əldə edilməsinin bu qədər real olmasına dair açıqlama verməmişəm. Bu, indi daha çox mümkün görünür. Bu prosesi dayandıra biləcək yeganə hal Nikol Paşinyanın əleyhdarları olan radikal millətçilər, həmçinin ABŞ-da prosesin əleyhinə olan diaspor nümayəndələrinin siyasi sabotaja əl atması ola bilər", - deyən sabiq səfirin sözlərinə görə, regional inkişaf baxımından sülh müqaviləsi çox böyük əhəmiyyətə malikdir. Metyu Brayza vurğulayıb ki, müqavilənin əleyhdarları Zəngəzur dəhlizinin açılmasının Azərbaycanın Ermənistan ərazisinə daxil olmaq cəhdləri kimi iddialar irəli sürsələr də, reallıqda bu barədə məhz Ermənistan özü 2020-ci ilin 10 noyabr tarixində razılığa gəlib. "Mən əminəm, Nikol Paşinyan anlayır ki, əgər nəqliyyat əlaqələri bərpa olunarsa və bu xətt Azərbaycanı Naxçıvan və Türkiyə ilə birləşdirərsə, bu, nəinki Ermənistana investisiya cəlbini artıracaq, iş yerlərinin açılmasına, həmçinin iqtisadiyyatın inkişafına gətirib çıxaracaq, Ermənistan iqtisadiyyatının regional iqtisadiyyata reinteqrasiyasına şərait yaradacaq. Bu isə regionda tamamilə yeni iqtisadi dinamika formalaşdıracaq və davamlı sülhün bərqərar olmasına yol açacaq. Sülh müqaviləsi regionda bütün investisiyaları real edəcək", - deyə o vurğulayıb.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Suallar:**

**1. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev azərbaycançılıq ideologiyasının banisidir.**

**2. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev və azərbaycançılıq məfkurəsi.**

### Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev azərbaycançılıq ideologiyasının banisidir

Dünyanın siyasi səhnəsində dövlətlərin uzunömürlü olması ilk növbədə onun ərazisində yaşayan bütün xalqları öz ətrafında birləşdirməyi bacaran və möhkəm təməllər üzərində qurulan siyasi ideologiyasının olmasından asılıdır. Hələ min illər əvvəl Azərbaycan amili bu ərazidə yaşayan bütün xalqlar üçün birləşdirici bir məfhuma çevrilmişdir.

Tarixi dönəmlərdə bu ideyanın inkişaf etdirilməsinə zərurət getdikcə daha da gücləndirildi. Bunun ən tarixi nümunəsi XX əsrin əvvəllərində gerçəkləşdirildi. Belə ki, 1918-ci ildə qurulan və Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə azərbaycançılıq ideologiyası daha da inkişaf etdirildi. Təsadüfi deyil ki, azərbaycançılıq ideologiyası həm də birləşdirici bir məfhum hesab olunur. Bu da ondan irəli gəlir ki, azərbaycançılıq ideyası ətrafında etnik mənsubiyyətindən asılı olmayaraq, ölkədəki bütün insanlar birləşirlər. Azərbaycanda yaşayan bütün xalqlar azərbaycançılıq ideyasını birləşdirici, vəhdət yaradıcı bir ideya kimi qəbul edirlər. Azərbaycançılıq ideyasının fundamental əsaslarından birini də məhz bu faktor təşkil edir.

Əslində, azərbaycançılıq ideologiyasının çox qədim tarixi kökləri vardır. Tarixin qədim dövrlərindən başlamış müasir günümüzə qədər Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini, polietnik zənginliyini özündə yaşadan və birləşdirən baxışlar sistemi kimi azərbaycançılıq ideyası təşəkkül tapmışdır. Azərbaycan tarixən çoxmillətli ölkə, milli və dini tolerantlığın bərqərar olduğu məkan kimi tanınmış və bu üstün cəhətlər azərbaycançılıq məfkurəsinin əsasını təşkil etmişdir. Xalqımızın böyük mütəfəkkirlərinin, dövlət adamlarının, ictimai xadimlərinin fəaliyyətində bu ideya təkmilləşdirilərək tarixi zərurət forması əldə etdi.

XX əsrin 80-ci illərinin sonlarında Azərbaycanda başlayan milli-azadlıq mücadiləsi və bu müstəvidə yaşadığımız faciələr həm ölkə daxilində, həm də xaricdə yaşayan soydaşlarımızın vahid ideya ətrafında birləşdirilməsi və onların imkanlarından istifadə edilməsini taleyüklü bir məsələ kimi ortaya çıxardı. Bu məsuliyyətli və taleyüklü məsələnin həllini öz üzərinə götürən görkəmli dövlət xadimi Heydər Əliyev qısa müddətdə tarixiliklə müasirliyin tam vəhdətinə nail oldu. O, bu müstəvidə dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşdirilməsinin, Azərbaycanın gələcəyi üçün tarixi və strateji önəm daşıdığını uzaqgörənliklə müəyyən etdi. Həmin dövrdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən irəli sürülən azərbaycançılıq ideyası Azərbaycanın dünya birliyinə inteqrasiyasının təməl sütunlarından birini təşkil etməyə başladı.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev azərbaycançılıq ideologiyasını Azərbaycan dövlətinin ana xətlərindən birinə çevirərkən ilk növbədə tarix boyu əldə edilmiş zəngin təcrübədən məharətlə və uzaqgörən bir strateq kimi istifadə etdi. Bu baxımdan Ulu Öndər Heydər Əliyevin azərbaycançılığı ümummilli ideologiya olaraq irəli sürməsi onun Azərbaycan dövlətçiliyi naminə göstərdiyi tarixi xidmətdir. Məhz azərbaycançılıq Azərbaycana qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin, ölkəmizi etnik bölücülük əsasında parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipər oldu. Çünki azərbaycançılıq bizim keçmişimizdən gələn dəyər olaraq vahid Azərbaycanın ideya əsası, ölkədə bütün konfessiya və etnosların həmrəylik və anlaşma içində birgə yaşayışının tarixi təcrübəsidir.

## **Mövzu:** Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev və azərbaycançılıq məfkurəsi

Azərbaycançılıq ideologiyası, bir tərəfdən, Azərbaycan türklərinin ölkədəki digər etnik qruplara tolerant münasibətinin, sülh içində yaşamaq istəyinin bariz göstəricisidirsə, digər tərəfdən, Azərbaycanın türk dünyasının ayrılmaz parçası olduğunun təsdiqidir. Odur ki, azərbaycançılığı realist milli inkişaf modeli olaraq qəbul edən Azərbaycan türk dövlətləri arasında səmimi və qarşılıqlı faydalı tərəfdaşlığın olduğunu daima nümayiş etdirir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev xaricdə yaşayan azərbaycanlıların dağınıq halda yaşamaması, onların diaspor fəaliyyəti göstərməsi üçün milli həmrəyliyin vacib olduğunu bildirirdi. O, həm də yaxşı dərk edirdi ki, milli həmrəyliyin möhkəmlənməsi üçün azərbaycançılıq ideologiyası zəruridir. Məhz bu ideologiyanın təbliği nəticəsində Azərbaycanı hansı səbəbdən tərk etmələrindən asılı olmayaraq xaricdə yaşayan soydaşlarımız arasında milli həmrəylik yarandı və onlar ümummilli maraqlar naminə birlikdə fəaliyyət göstərməyə başladılar. Bunun nəticəsində də soydaşlarımız arasında azərbaycançılıq ideologiyası milli həmrəyliyin konsepsiyasına çevrildi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev xarici dövlətlərə ilk səfərlərindən başlayaraq getdiyi hər bir ölkədə yaşayan həmvətənlərimizlə oradakı azərbaycanlı icmasının böyük və ya kiçikliyindən asılı olmayaraq görüşlər keçirir, onların problemləri, qayğıları ilə maraqlanır, tövsiyələrini verirdi. Azərbaycan diasporunun yeni mərhələdə inkişaf tezislərini də məhz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həmin görüş və çıxışlarda söylədiyi fikirlər, müddəalar təşkil etmişdir. Özü də bu, hər zaman şüarçılıqdan uzaq, reallığı əks etdirən, zərurətdən doğan fikir və müddəalar olub. Bu baxımdan Ulu Öndər Heydər Əliyevin 2001-ci ilin noyabrında Bakıda Dünya Azərbaycanlılarının I Qurultayında azərbaycançılığın, öz milli mənsubiyyətin, milli-mənəvi dəyərlərin qorunub saxlanması haqqında demişdir: "Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşı kimi, istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Bizim hamımızı birləşdirən bu amillərdir. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin azərbaycançılıq ideologiyasında tarixiliklə müasirliyin nəzəri vəhdəti əsas yer tutur. Azərbaycançılığın ümummilli ideologiya halına gəlməsi, bütün dünya azərbaycanlılarını birləşdirən məfkurəyə, müstəqil Azərbaycan dövlətinin əsasına çevrilməsi məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. O, azərbaycançılığı dövlətçiliyə tətbiq etdi, bu məfkurəyə əsaslanan milli dövlət yaratdı, xalqda dövlətçilik hissini formalaşdırdı. Bu ideologiya Azərbaycan dövlətinə qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin, ölkəmizi etnik əlamətlər əsasında parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipər oldu. Bunu onun Dünya Azərbaycanlılarının Qurultayındakı nitqi də sübut edir. Ulu Öndər Heydər Əliyev qurultaydakı çıxışında demişdir: "Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi, həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik".

### Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev və azərbaycançılıq məfkurəsi

Azərbaycan tarixən müxtəlif millətlərin dinc yanaşı yaşadığı, milli və dini tolerantlığın bərqərar olduğu ölkə olub. Burada hər bir xalqın və millətin nümayəndəsinə bərabər münasibət göstərilib. Ona görə Azərbaycan vətəndaşı sayılan hər kəs azərbaycançılıq ideyası ətrafında birləşib. Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini birləşdirən baxışlar sistemi kimi azərbaycançılıq ideyası bu gün də mövcuddur. Bu ideya ictimai-siyasi proseslərə, konstitusiya sisteminə, xüsusilə dövlət quruculuğuna öz müsbət təsirini göstərir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin fəlsəfi, siyasi mənası olduqca dərindir. Azərbaycançılıq milli həmrəyliyi, bütövlüyü təmin edən, milli təəssübkeşlik və vətənpərvərlik hissini gücləndirən məfkurədir. Azərbaycan xalqının Ümummilli Liderinin müəllifi olduğu, sistemləşdirdiyi azərbaycançılıq ideologiyası təkcə bu ölkənin ərazisində yaşayan insanları yox, eyni zamanda, bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edərək dünya azərbaycanlılarının milli istinad mənbəyinə çevrilib.

Ulu Öndər Heydər Əliyevin şah əsəri müasir müstəqil Azərbaycan dövlətidir. Müasir müstəqil Azərbaycan dövlətinin ideya əsaslarını da azərbaycançılıq ideologiyası təşkil edir.

Hələ sovet dövründə respublika rəhbəri işləyərkən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin mənəviyyat, təhsil, mədəniyyət, əxlaq, milli adət-ənənələrin qorunması və inkişafı sahəsində gördüyü işlər müstəqil dövlətimizin yaradılması ilə nəticələndi. Azərbaycançılıq ideologiyası da məhz buradan qaynaqlanır. Bu ideologiya ölkəmizdə yaşayan xalqları bir amal uğrunda birləşdirir: Hamımızın Vətəni Azərbaycandır və biz müstəqil dövlətimizi qoruyub inkişaf etdirməliyik. Hələ 1978-ci ildə Azərbaycan SSR Konstitusiyası qəbul edilərkən Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə dövlət dili Azərbaycan dili kimi təsdiq olundu. Eyni zamanda, o dövrdə iqtisadiyyatı, sənayeni inkişaf etdirməklə, bu sahədə güclü baza yaratmaqla, bütün sahələr üzrə peşəkar milli kadrlar yetişdirməklə Ulu Öndər Heydər Əliyev müstəqilliyin əsasını qoymuşdu.

Ulu Öndər yorulmadan Azərbaycanın hər bir guşəsinə səfər edir, inkişafla maraqlanır, insanların həyat tərzi ilə tanış olurdu. Bununla da o, Azərbaycan insanını daha yaxından tanıyaraq, onların ənənələrini, mənəvi dəyərlərini və digər milli keyfiyyətlərini ümumiləşdirərək bu ideologiyanın əsasını qoydu. Təbii ki, bunların hamısı Azərbaycanın gələcək müstəqilliyinə hesablanmışdı.

Qüdrətli şəxsiyyət Azərbaycan dilinin, tarixinin, ədəbiyyat və mədəniyyətinin yeni - azərbaycançılıq məfkurəsi ilə dərkinin metodologiya və strategiyasını formalaşdırdı. Bu baxımdan "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 iyun 2001-ci il tarixli Fərmanı və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 9 avqust 2001-ci il tarixli Fərmanı böyük tarixi-siyasi əhəmiyyətə malik sənədlər oldu. Bu tarixi sənədlər artıq yeni əsrin və üçüncü minilliyin əvvəllərində ana dili uğrunda mübarizənin dövlət səviyyəsində milli müstəqillik uğrunda mübarizənin təməl faktları idi.

Ulu Öndər Heydər Əliyevin xalqımız üçün qoyduğu zəngin və əvəzsiz irs ölkəmizin gələcək inkişaf perspektivlərini müəyyənləşdirən fundamental bir fəaliyyət proqramıdır. Bu çoxcəhətli, zəngin fəaliyyət proqramının ən mühüm qollarından birini, heç şübhəsiz, ordu quruculuğu təşkil edir. Bu istiqamətdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev fəaliyyətinin qlobal miqyası Azərbaycanın bugünkü reallıqları ilə yanaşı, həm də keçmişinin və gələcəyinin prizmasından əzəmətli görünür. Belə ki, hələ sovet hakimiyyəti illərində respublikamıza rəhbərlik edən Ulu Öndərin ordu quruculuğu, xüsusilə də hərbi təhsil sisteminin təməlini qoymaq istiqamətində həyata keçirdiyi tədbirlər bu gün öz tarixi təsdiqini tapmaqdadır. O vaxtlar Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və təkidi ilə Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış məktəbin yaradılması, ölkənin ali hərbi məktəblərinə göndərilən azərbaycanlı gənclərin sayının artırılması, onların qəbulunda konkret güzəştlərin tətbiqi respublikamızın gələcəyinə hesablanmış uzaqgörən siyasətin nəticəsi idi.

Müstəqillik illərində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə görülən işlər azərbaycançılıq ideologiyasının təbliği və mənimsənilməsində müstəsna əhəmiyyət kəsb etdi. Ötən zaman göstərdi ki, müstəqillik yolumuz Ulu Öndər Heydər Əliyevin parlaq zəkasının, onun Azərbaycan torpağına, insanına olan sevgisinin təzahürü kimi meydana çıxdı. Azərbaycan xalqı, ictimaiyyətin nümayəndələri çox haqlı olaraq bu illər ərzində ölkədə bütün sahələrdə uğurlara aparan yolun parlaq bir yol olduğunu qeyd edir və bu yol Heydər Əliyev yolu adlandırılır. Bu gün ölkəmiz Ulu Öndərin ideyaları əsasında inkişaf edir. Azərbaycanın müstəqilliyinin qorunub saxlanması, ölkəmizdə inkişafın, sabitliyin və həmrəyliyin təmin olunması bilavasitə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi Ulu Öndərin xatirəsinə ehtiramın təzahürüdür. Belə ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə 2023-cü il "Heydər Əliyev İli" elan edilib.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# “Ata-baba yurdumuza yenidən qayıtmaq, hərbçi kimi xidmət etmək ən böyük arzum olub”

- Ata-babalarımızdan miras qalan Vətən sevgimiz, igidlik, qəhrəmanlıq bizim ən böyük milli-mənəvi sərvətlərimizdəndir. Məhz bunun nəticəsidir ki, dünyada söz sahibi olan müstəqil, qüdrətli dövlətimiz və yenilməz rəşadətli ordumuz var. Xalqımızın azadlıq və müstəqillik mübarizəsi tarixinə qızıl hərflərlə yazılmış 1918-ci il mayın 28-i hər bir azərbaycanlının qürur hissi duyduğu əlamətdar bir gündür. Azərbaycan xalqı ötən əsrin əvvəllərində müstəqillik arzusuna qovuşdu. Şərqdə ilk demokratik respublikanın yarandığı dünyaya bəyan edildi. 1918-ci il mayın 28-də çarizmin bir əsrdən artıq davam edən müstəmləkə əsarətindən azad olan xalqımız Şərqin ilk demokratik respublikasının təməlini qoydu. Bu, XX əsrdə xalqımızın həyatında yeni bir tarixi hadisə oldu. Azərbaycan Xalq Cümhuriyyətinin tariximizdəki yeri və roluna xüsusi qiymət verən Ulu Öndər Heydər Əliyev dəfələrlə bildirmişdi ki, biz bu gün demokratik Azərbaycan dövlətini qururuqsa, ayağa qaldırırıqsa, Xalq Cümhuriyyətinə borcluyuq.

Bu sözləri Laçında həmsöhbət olduğum polkovnik Elçin Paşayev bildirdi. Elçin Kamal oğlu Paşayev Qarabağın general qubernatoru olmuş Xosrov bəy Sultanovun qardaşı nəvəsidir. Təcrübəli zabit 1989-cu ildən ordu sıralarında xidmət edir. Əvvəlcə xidmətə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi başlayan Elçin Paşayev 1993-cü ildə Bakı Ali Hərbi Birləşmiş Komandirlər Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) zabitlər kursunu bitirərək hərbi rütbə alıb. Birinci və İkinci Qarabağ müharibələrinin iştirakçısı olan peşəkar zabitimiz Xosrov bəy Sultanovun həyatı, xalqımız və dövlətimiz qarşısındakı xidmətləri haqqında danışdı:

- Təbii ki, tək mən yox, bütün Azərbaycan xalqı torpaqlarımızın işğaldan azad olunmasına, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa edilməsinə sonsuz sevinir. Bu tarixi günlər mənə ikiqat sevinc və qürur yaşadır. Ona görə ki, bir vaxtlar bu ərazilərdə mənim babalarım məskunlaşıblar, ərazi bütövlüyümüz uğrunda ermənilərlə mübarizə aparıblar. Onların nəslinin davamçısı kimi bu torpaqların azadlığı uğrunda döyüşlərin iştirakçısı olmaq, ata-baba yurdumuza yenidən qayıtmaq, burada hərbçi kimi xidmət etmək... illərlə ən böyük arzumuz olub. Bu arzularıma çatdığıma görə özümü xoşbəxt hesab edirəm. Mənim kimi doğma ocaqlarından didərgin düşmüş minlərlə vətəndaşımızın arzularını çin edən Ali Baş Komandanımız cənab İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm.

Polkovnik Elçin Paşayev ötən əsrin əvvəllərində qurulan cümhuriyyətin hərbi zəfərlərinin həm də ADR-in ilk Hərbi naziri, Qarabağın general-qubernatoru Xosrov bəy Sultanovun adı ilə bağlı olduğundan söz açdı. Ölkəmizin çoxəsrlik dövlətçilik salnaməsinin ən parlaq səhifələrindən birini təşkil edən ADR-nin yaradılmasında Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Əlimərdan bəy Topçubaşov, Xəlil bəy Xasməmmədov, Məmmədhəsən Hacınski, Səməd bəy Mehmandarov kimi, babası Xosrov bəy Sultanovun da böyük rolu olduğundan danışdı: "Azərbaycan Demokratik Respublikasının mövcud olduğu 23 ay ərzində ölkənin müdafiəsinin təşkili, ordunun formalaşdırılması sahəsində uğurlu işlər görüldü. 1918-ci il mayın 28-də elan edilmiş və cəmi 23 ay ömür sürmüş, lakin özündən sonra zəngin irs qoymuş Azərbaycan Demokratik Respublikası (ADR) digər dövlət atributları ilə yanaşı, Milli Ordu quruculuğu istiqamətində də çox böyük işlər görüb. 1918-ci il mayın 28-də qəbul edilmiş Azərbaycan Demokratik Res-



publikasının istiqlal bəyannaməsində qeyd edilirdi ki, Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələri zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, özünün silahlı qüvvələrini yaratmalıdır. Çünki müstəqil ordusu olmayan dövlətin milli dövlətçiliyi həmişə yadellilərin təhlükəsi altında yaşamağa məhkumdur. Ona görə də vacib məsələlərdən biri Hərbi Nazirliyin yaradılmasından ibarət idi. Hərbi nazir vəzifəsi rəsmi təsis edilməsə də, bu vəzifəni 1918-ci il mayın 28-dən iyunun 11-ə qədər mülki şəxs kimi Xosrov bəy Sultanov icra etdi. Xosrov bəy çox az müddət nazir vəzifəsini icra etsə də, tarixə adını yazan görkəmli şəxsiyyətdir".

Qeyd edim ki, Xosrov bəy Sultanov 1879-cu ilin mayında Zəngəzur qəzasının Qasımuşağı obasının Qurddağı kəndində - indiki Laçın rayonu ərazisində anadan olub. Gəncə gimnaziyasını bitirdikdən sonra Odessada ali tibb təhsili alıb. Sonra isə Novorossiysk Universitetinin tibb fakültəsində ali təhsilini davam etdirib. 1903-cü ildə təhsilini başa vuraraq birbaşa Zəngəzura qayıdıb. Polkovnik Elçin Paşayev babası haqqında maraqlı bir məlumatı da danışdı: "Babam universitetdə oxuyanda təsadüfən yolda bir rus zabitinin gənc qıza sataşdığını görür. Ətrafdakılardan fərqli olaraq, Xosrov bəy qızı müdafiə edir. Nəticədə babam rus zabiti ilə duelə çıxır. Birinci gülləni rus zabiti atır və babamın bir gözünü zədələyir. Yaralı olmasına baxmayaraq, babam özünü itirmir və sərrast nişan alaraq zabiti öldürür. Sonradan məlum olur ki, bu qız Novorossiysk Universitetinin rektorunun qızıdır. Qızla babam arasında səmimi dostluq yaranır və bu dostluq böyük bir məhəbbətə çevrilir. Ailə qururlar. Bir oğulları olur. Babam oğlunun adını Murad qoyur. Amma Murad uşaq ikən dünyasını dəyişir".

Sözlərinə davam edən polkovnik Xosrov bəyin taleyinin qəhrəmanlıq və sevgi, hərb və mühacirət hekayəsi olduğunu qeyd etdi: "Xalqımızın şərəf və ləyaqət rəmzi olan bir çox müasirləri kimi, Xosrov bəy də bizim yaddaşımıza öz millətinin azadlığı və fıravanlığı, təhsili və xoşbəxt gələcəyi üçün sonsuz fədakarlıqları ilə həkk olunub. Təhsilini başa vurandan sonra Şuşaya köçən Xosrov bəy Qarabağda həkimliklə məşğul olmağa başlayır. O, Şuşadakı evinin birini kitabxanaya çevirir. Şuşa ziyalılarını teztez bu evə dəvət edir, burada Şərq xalqlarının tarixindən, mədəniyyətindən söhbətlər edir, imkansız ailələrin uşaqlarının təhsilə cəlb edilməsi müzakirə olunur".

Qeyd edim ki, Xosrov bəy ADR-in ikinci kabinetində əkinçilik naziri, 1919-cu ilin 15 yanvarından 1920-ci il aprelin son günlərinə kimi Şuşada Qarabağın general-qubernatoru olub. Xosrov bəy Sultanov Qarabağın general-qubernatoru təyin olunanda erməni-daşnak qoşunları Qarabağda qırğınlar törədirdilər. Həmin ilin 21 martında erməni-daşnak hərbi dəstələri Qarabağa yeganə keçid olan Əsgəran keçidini zəbt etmişdilər. Amma daşnak generalı Dronun hərbi dəstələri Xosrov bəyin başçılıq etdiyi Azərbaycan əsgərləri tərəfindən mayın 30-da darmadağın edildi, Xankəndi və Şuşa geri alındı. Azərbaycan Respublikasının Qarabağ bölgəsində, xüsusilə Şuşada qayda-qanun yaradan Xosrov bəy Sultanov buradakı erməni əhalisinin də təhlükəsizliyini təmin edir. Erməni məhəllələrində postlar qurulur, poçt, bank xidmətləri fəaliyyətini bərpa edir, insanların gündəlik həyatı axarına düşür.

1920-ci ildə Qızıl ordunun Azərbaycana daxil olması və Azərbaycan Demokratik Respublikasının süqutu uğraması Xosrov bəy Sultanovu da Vətəndən didərgin saldı. Bundan sonra onun Türkiyədə, Almaniyada, Fransada, Polşada ağır mühacirət həyatı başlayır. Xosrov bəyin fəaliyyətinin mühüm bir dövrünü də mühacirət illəri təşkil edir. O, 1936-cı ildə Türkiyəyə qayıdıb Trabzonda yaşayır. Sonradan İstanbula köçür, orada 1943-cü il yanvarın 7-də dünyasını dəyişir. Xosrov bəyin məzarı İstanbulun "Fəriköy" qəbiristanlığındadır.

Bu gün Xosrov bəyin yolunu şərəflə və ləyaqətlə davam etdirən, həm də ata-baba yurdlarında xidmət edən polkovnik Elçin Paşayev bu günləri xalqımıza yaşadan dövlət başçımıza olan minnətdarlığını rəsmi məktub vasitəsilə də bildirdiyini dedi.

Qarabağın general-qubernatoru olmuş Xosrov bəy Sultanovun qardaşı nəvəsi Elçin Kamal oğlu Paşayev Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə müraciətində yazıb: "... 28 illik həsrətdən sonra ordumuzun işğaldan azad edilmiş Laçın rayonunun ərazisinə daxil olması bizim həyatımızda ən xoşbəxt, ən qürurlu və sözlə ifadə edilməsi mümkün olmayan sevincli bir gün olmuşdu. Bu günü Laçın sakinlərinə, Xosrov və Sultan bəy qardaşlarının ailəsinə yaşatdığınıza görə Sizə minnətdarıq. İşğaldan azad olunmuş Qarabağ, o cümlədən Laçın rayonunda Sizin rəhbərliyiniz altında böyük quruculuq işləri gedir. Yollar çəkilir, evlər tikilir, küçə və parklar salınır, elektrik stansiyaları qurulur və rayonun ərazisində hava limanı inşa edilir. Bunlarla birlikdə, Qarabağın general-qubernatoru olmuş babam Xosrov bəy Sultanovun adına küçə verilməsi və lövhənin Sizin tərəfinizdən açılması Xosrov bəyin ruhunu şad etmişdir. Buna görə də Sizə ailəmiz və qohumlarımız adından sonsuz minnətdarlığımı bildirirəm. Azərbaycan tarixinə qızıl hərflərlə yazdığınız 2020-ci il 1 dekabr, 2022-ci il 26 avqust, 2023-cü il 23 aprel və 27-28 may tarixləri biz laçınlılar üçün sevinclə dolu, böyük tarixi günlərdir, unudulmazdır. Biz laçınlılara Qələbə və Zəfər sevincini yaşadan Müzəffər Ali Baş Komandanımıza, qəhrəman ordumuza minnətdarlığımı bildirir, Laçınımızı öz qanı bahasına bizə qaytaran şəhidlərimizə Allahdan rəhmət, yaralılara şəfa diləyirəm. Siz Ulu Öndərin vəsiyyətini yerinə yetirərək bizi indi öz doğma ata-baba yurdumuza, Laçınımıza qaytarırsınız. Laçın sakinlərinin Sizə olan məhəbbətini, ehtiramını və minnətdarlığını ifadə etməyə sözün gücü çatmır. Bu qayıdışla biz təkcə amansız ayrılığa son qoymuruq, həm də öz yurdumuzu yenidən Sizin rəhbərliyinizlə və qayğınız sayəsində qurmaq imkanı qazanmışıq. Bizə bu sevincli və qürurverici günləri yaşatdığınıza görə bir daha Xosrov bəy Sultanovlar ailəsi, qohumları adından və bir əsgəriniz olaraq şəxsən öz adımdan sonsuz minnətdarlığımı bildirirəm..."

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Almaniya Ukraynaya 1,3 milyard Avro məbləğində hərbi yardım ayıracaq



Almaniya rəsmi Kiyevə ümumi həcmi 1,3 milyard Avro dəyərində olan yeni hərbi yardım paketi ayıracaq.

Bu barədə Almaniyanın müdafiə naziri Boris Pistorius ukraynalı həmkarı Rüstəm Umerovla görüşündə deyib.

Yeni yardım paketinə 4 ədəd "IRIS-T SLM" hava hücumundan müdafiə sistemi, 60 ədəd kəşfiyyat məqsədli müxtəlif pilotsuz uçan aparat, 20-dək radar, o cümlədən 155 mm-lik kalibrə malik 20 min artilleriya silahı daxil olacaq. Beləliklə, Almaniya rəsmi Kiyevə, ümumilikdə, 12 ədəd "IRIS-T SLM" hava hücumundan müdafiə sistemi verəcəyini bildirib. İlk 3 sistem artıq təhvil verilib, dördüncü HHM qurğusu gözlənildiyi kimi, qışda tədarük olunacaq. Daha dörd sistemdən ibarət ikinci partiya isə 2024-cü ildə göndəriləcək. B.Pistoriusun Ukraynaya söz verdiyi üçüncü partiyaya daxil olan sistemlər ölkəyə 2025-ci ildə tədarük olunacaq.

"Bild" nəşrinin yazdığına görə, indiyədək Almaniya Ukraynaya 155 mm-lik kalibrə malik 20 min artilleriya silahı təhvil versə də, uzaqmənzilli "Taurus" raketlərini nə vaxt göndərəcəyi ilə bağlı açıqlama verməyib.

Almaniyanın müdafiə naziri noyabrın 21-də Kiyevə elan olunmamış səfər edib.

### ABŞ-ın sualtı qayığı Cənubi Koreya sahillərinə çatıb



"Carl Vinson" aviadaşıyıcısının ardından ABŞ-ın "USS Santa Fe" atom sualtı qayığı da Cənubi Koreya sahillərinə çatıb.

Bu barədə Cənubi Koreyanın Hərbi Dəniz Qüvvələri məlumat verib.

"Birləşmiş Ştatların "Los-Anceles" sinfinə aid "USS Santa Fe" (SSN-763) atom sualtı qayığı Koreya Respublikasının cənubunda yerləşən "Çedjudo" hərbi-dəniz bazasına gəlib", - deyə məlumatda bildirilir. Sualtı qayığın gəlişi Pxenyanın kəşfiyyat peykini uğurla orbitə çıxarması barədə məlumatı ilə üst-üstə düşüb.

"USS Santa Fe" atom sualtı qayığı noyabrın 21-də Koreya Respublikasının cənub-şərqində yerləşən Busan şəhərindəki hərbi-dəniz bazasına gələn "Carl Vinson" aviadaşıyıcı gəmisi ilə birlikdə ABŞ Hərbi Dəniz Qüvvələrinin zərbə qrupunun bir hissəsidir.

Qeyd edək ki, KXDR-in məlumatına görə, Tonçhan-ni poliqonundan start götürən "Çholima-1" daşıyıcı raketi "Malligen-1" kəşfiyyat peykini uğurla orbitə çıxarıb. Pxenyan yaxın zamanlarda daha bir neçə peyki orbitə çıxarmağı planlaşdırdığını bildirib. Şimali Koreya cari ilin avqust və may aylarında bu istiqamətdə iki uğursuz cəhd etmişdi.

### CNN: HƏMAS tərəfindən azad edilən girovların hamısı uşaq olacaq



İsraillə razılaşma əldə edilərsə, HƏMAS-ın azad edəcəyi girovlar uşaqlar olacaq.

Bu barədə CNN mənbələrinə istinadən məlumat yayıb.

Mənbələrdən biri CNN-ə açıqlamasında HƏMAS-ın azad edəcəyi girovların demək olar ki, hamısının uşaq olacağını bildirib. Digər mənbə isə qeyd edib ki, azad edilən girovlar arasında İsrail vətəndaşları və ikili vətəndaşlığı olan şəxslər də olacaq.

Bundan əvvəl NBC telekanalı bildirmişdi ki, İsrail və HƏMAS nümayəndələri girovların azad edilməsi ilə bağlı ilkin razılığa gəliblər. İndi İsrail hakimiyyəti bunu təsdiqləməlidir. İlkin razılaşma Fələstinin radikal HƏMAS hərəkatının saxladığı 50 qadın və uşağın 150-yə yaxın fələstinli məhbusla dəyişdirilməsini nəzərdə tutur. Qeyd edildiyi kimi, hələ ki, sayla bağlı dəqiqləşdirmə aparılır. Həmçinin, razılaşmaya əsasən, tərəflər 4-5 gün müddətinə atəşkəs və Qəzza zolağına yanacağın çatdırılmasını elan edə bilərlər.

**AZƏRTAC-ın materialları əsasında**

# Quru Qoşunlarında atletika birinciliyi keçirildi



*Quru Qoşunları Komandanının təsdiq etdiyi 2023-cü ilin döyüş hazırlığı planına əsasən, birlik, birləşmə və əlahiddə bölmələr arasında atletika yarışı keçirildi. Yarışın rəhbərinə 8 komandanın atletika yarışına hazır olduğu barədə məruzə olundu.*

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü, müstəqilliyi və xalqımızın azadlığı uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Hərbi orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Polkovnik-leytenant Elman Hadıyev yarış iştirakçılarını salamladı və onlara uğurlar arzuladı. Hərbi hissələrdə şəxsi heyətin fiziki hazırlıq səviyyəsinin yüksəlməsinə və idman yarışlarının hərbçilərin döyüş qabiliyyətinin artırılmasına birbaşa təsiri olduğunu vurğuladı. Birliklərdən və əlahiddə hərbi hissələrdən ibarət olmaqla komandalar iki qrupa ayrılmışdılar. Yarışın rəhbəri komandaların mübarizəyə lazımınca hazırlaşdığına əmin olduğunu və bu mübarizədə həm komanda, həm də fərdi qaliblərin müəyyən edilməklə mükafatlandırılacağını bildirdi.

100 metr məsafəyə qaçışla yarışa start verildi. Atletlərin mübarizəsi coşqu ilə qarşılandı. İdmançılar komanda yoldaşlarına məsafəni qısa vaxtda qət etmək üçün dəstək olurdular. Yarışın ilk dəqiqələrində "Şəmkir" komandası daha fəal görünürdü. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Səməd Əliyev ən qısa zamanda məsafəni keçdi. Birinci qrupda mübarizə aparan "Hadrut" komandasının da yarışa ciddi hazırlaşdığı hiss olunurdu. Digər komandalarla müqayisədə hadrutlular xal fərqi ilə üstünlüyü əldə saxlamağa çalışsalar da, bu mümkün olmadı.

3000 metr məsafəyə qaçışda yenə "Şəmkir" komandasının atletləri - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları kiçik çavuş Novruz Qasımov, əsgər İqbal Şiriyev və çavuş Emil Mürşüdov ən qısa vaxtda məsafəni keçməklə komandanı finala daşıya bildilər. İkinci qrupda isə "Artilleriyaçılar" daha fəal mübarizə aparaq qrupda sona qədər üstünlüyü qoruyub saxlaya bildilər.



Estafet qaçışı üzrə komandaların mübarizəsi də diqqət çəkən oldu. "Bərdə" komandasının idmançılarının ilk dəqiqələrdə daha ciddi mübarizə apardıqlarının şahidi olsaq da, onlar üstünlüyü sona qədər saxlaya bilmədilər.

Atletika yarışlarının sonunda hakimlərin qərarı elan olundu. Birinci qrupda qalib komanda "Şəmkir", ikinci yerdə isə "Hadrut" komandası yer aldı. İkinci qrupda "Artilleriyaçılar" qalib elan olundu.



Sonda atletika üzrə qalib komandaların və fərdi qaliblərin mükafatlandırılması keçirildi. Polkovnik-leytenant Elman Hadıyev Quru Qoşunları Komandanı adından birinci yerə çıxan "Şəmkir" komandasının kapitanına kuboku təqdim etdi. İkinci yerə layiq görülən və ikinci qrupun qalibi olmuş komandaların rəhbərlərinə diplomlar, fərdi qaliblərə isə medallar və fəxri fərmanlar verildi. Sonda xatirə şəkilləri çəkdirildi.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Əsgərlərin dağ hazırlığı

*Hərbi hissələrdə şəxsi heyətin döyüş hazırlığını artırmaq məqsədilə sinif otaqlarında praktik tapşırıqlar icra edilir. Təlim meydanında olduğum zaman mayor İlkin Ağazadə ilə görüşdüm. O, növbəti məşğələnin taktiki sinifdə keçiriləcəyini və hazırda dərsə hazırlaşdığını bildirdi.*

Zabit İlkin Ağazadə taktiki sinifdə əsgərlərə dağ hazırlığı zamanı istifadə edilən döyüş ləvazimatlarından istifadə qaydalarını öyrədirdi. Dağçılıq təlimində istifadə olunan bəzi ləvazimatlarla otaq şəraitində də yaxından tanış olmaq mümkündür. Zabit əvvəlcə mövzuya uyğun istifadə olunan əşyaları stolun üzərinə düzdü. Onların adını və nə zaman, nə məqsəd üçün yararlı olduğunu şəxsi heyətin diqqətinə çatdırdı. Kanat, qarmaq, buz baltası, dişli başmaq və döyüş tapşırıqlarının icrası zamanı istifadə olunan başqa əşyalarla tanışlıq əsgərlərdə maraq oyadırdı.



Dərs rəhbəri ləvazimatlardan necə, nə vaxt, nə cür istifadə etmək lazım olduğunu bir-bir izah edirdi. Əsgərlərdən Vüqar İbişov dağlıq ərazidə istifadə edilən geyimlərdən istifadə qaydalarını təkrar edir.

Əsgərlərdən Vüsal Hüseynov, Kənan Hüseynov və başqaları təlimi yetərincə mənimsədiyini bildirdilər. Onlar sonuncu döyüşlərin də məhz dağlıq ərazilərdə keçirildiyindən dağlıq ərazidə döyüş ləvazimatlarının istifadə qaydalarının öyrənilməsinin vacibliyini yaxşı anlayırlar.

Dərs rəhbəri sərt yamaclardan, sıldırım qayalıqlardan buz bağlamış yollardan keçmək üçün nəzərdə tutulan bu ləvazimatların ilin bütün fəsillərində istifadəyə ehtiyac duyulduğunu da önə çəkdi.

**Baş leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan karateçiləri dünya çempionatında iştirak edəcəklər



Azərbaycan Karate Federasiyasının (AKF) idmançıları kyokuşin-kan üzrə dünya çempionatında iştirak edəcəklər.

Qazaxıstanın Almatı şəhərində keçiriləcək mundialda yığmanın 19 kişi və 3 qadın üzvü qüvvəsini sınayacaq.

Komandanın tərkibində bir neçə beynəlxalq turnirin qalib və mükafatçıları da yer alıblar.

Azərbaycan Karate Federasiyasının baş katibi Qabil Sayadov dünya çempionatına yollanacaq idmançıların şanslarını yüksək qiymətləndirib. Noyabrın 24-26-da keçiriləcək mundialda 12 yaş kateqoriyasından başlayaraq, yeniyetmə və gənclərdən ibarət milli üzvləri ilə yanaşı, qadınlardan ibarət heyət də iştirak edəcək.

## Azərbaycan kikboksçusu reytinq döyüşünün qalibi olub



Kikboks üzrə dünya kəmərinin sahibi, Daxili İşlər Nazirliyinin (DİN) İdman Cəmiyyətinin idmançısı Şikar Bədəlov növbəti döyüşünə çıxıb.

İdmançı bu dəfə 81 kiloqram çəki dərəcəsində "King of Kings" reytinq döyüşündə qüvvəsini sınayıb. O, çəkidə özündən 10 kiloqram artıq olan niderlandlı Nabil Xazri ilə qarşılaşıb.

Türkiyədə keçirilən duelə Azərbaycan təmsilçisi daha yaxşı başlayıb. Ş.Bədəlovun zərbələrinə tab gətirə bilməyən N.Xazri çox keçmədən təslim olub. Beləliklə, kikboksçu növbəti qələbəsini qazanaraq Azərbaycan bayrağını dalğalandırıb.

Xatırladaq ki, Şikar Bədəlov bu ilin fevralında Türkiyənin İstanbul şəhərində Yahya Kemal Beyatlı Mərkəzində mərakeşli Nordin El Benmofu birinci raundun ilk dəqiqəsində məğlub edərək dünya kubokunun sahibi olmuşdu.

## Avropa çempionatı: Azərbaycan şahmatçıları xalların sayına görə ikinci olub



Şahmat üzrə Avropa çempionatının bağlanış mərasimi keçirilib.

Qadın şahmatçılardan ibarət Azərbaycan yığmasına gümüş medal təqdim olunub.

Eyni zamanda lövhələr üzrə ən çox xal toplayan şahmatçılar açıqlanıb. Günay Məmmədzadə, Gülnar Məmmədova və Xanım Balacayeva fərdi nəticələrə əsasən, lövhələr üzrə ikinci olmaqla gümüş medala layiq görülüb.

## AFFA Canni De Byazi ilə yollarını ayırıb



AFFA futbol üzrə Azərbaycan milli komandasının baş məşqçisi Canni De Byazi ilə yollarını ayırıb.

Bu barədə jurnalistlərə açıqlamasında milli assosiasiyanın baş katibi Sərxan Hacıyev məlumat verib.

Qərar qurumun İcraiyyə Komitəsinin (İK) bu gün keçirilmiş fövqəladə iclasında qəbul olunub. S.Hacıyevin sözlərinə görə, italiyalı mütəxəssis noyabr ayının sonunda başa çatacaq müqaviləsinin müddətinin uzadılmamasını xahiş edib. Onun istəyi İK tərəfindən qəbul olunub.

Qeyd edək ki, Canni De Byazi 2020-ci ilin avqustunda Azərbaycan millisinə baş məşqçi təyin olunmuşdu.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Cavadlı Turab Pünhan oğluna məxsus AD № 0010730 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
kapitan
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 789
Nüsxə 4752